**R.V.NƏSİBOVA**
*e-mail: reksanenesibova555@gmail.com*
**:https://orcid.org/0009-0003-0658-5505**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.380**

# FƏNLƏRARASI ƏLAQƏNİN MƏKTƏBLİ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

***Xülasə.*** *Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, Azərbaycan milli hərbi-vətənpərvərliyi dövlət müstəqilliyi qazanıldıqdan sonra özünün yüksək inkişafı üçün ən əlverişli şərait qazandı. Azərbaycan milli hərbi-vətənpərvərliyinin başlıca şərtləri onun müstəqil olması, müstəqil ordusunun olması, milli liderinin olması, əzəmətli sərkərdəsinin olması, dünya azərbaycanlılarının vahid vətəninin olması, fənlərarası əlaqə prinsipi əsasında qurulan təliminin olması, azərbaycançılıq ideologiyası mentalitetindədir. Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının aliliyi, müasir döyüş texnikasını mükəmməl öyrənmək və onlardan məharətlə istifadəni bacarmaq da milli hərbi-vətənpərvərliyin tərkib hissəsi kimi qəbul olunmalıdır.*

***Açar sözlər:*** *fənlərarasi əlaqə, hərbi-vətənpərvərlik tərbiyəsi, problemli şərh, axtarıcı müsahibə, tədqiqat metodu*

Gənclərin çağırışaqədərki hazırlığı dərslərində şagirdlərin ümumtəhsil fənləri üzrə biliklərindən istifadənin yüksək səviyyədə təşkili məqsədilə təlimin ayrı-ayrı metodlarından səmərəli şəkildə istifadə etmək lazımdır. Yeri gəldikcə təlimin şifahi, əyani və praktik metodlarına müraciət etmək, həm verilən biliklərin şüurlu və asan mənimsənilməsinə, yaddaşda uzun müddət qalmasına, həm dərsin praktik istiqamətini qüvvətləndirməyə, həm də təlim prosesini əyaniləşdirməyə imkan verir. Uzun illərin təcrübəsi göstərmişdir ki, ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı (ibtidai hərbi hazırlıq) üzrə məşğələlərin fizika, riyaziyyat əmək təlim, astronomiya və s. fənləri ilə əlaqəli şəkildə keçilməsi tədrisin keyfiyyətini müstəsna dərəcədə yüksəldir, maksimum bilik, bacarıq və vərdişlər qazanmasına kömək göstərir.

Məktəb fənləri arasında qarşılıqlı əlaqə problemi daim didaktikanın aktual məsələlərindən biri olmuşdur. İndi də bu belədir.

Mütəxəssislərdən Ş.T.Tağıyev fənlərarası əlaqəni təlimin müstəqil prinsipi hesab edir [1, s.96]. Pedaqoqlardan İ.D.Zveryevin fikrincə, fənlərarası əlaqə təlimin sistematiklik və ardıcıllıq prinsipinin həyata keçirilməsinə kömək göstərən bir vasitədir [2, s.37]. Mütəxəssislərdən N.M.Çərkəzzadə, K.P.Korolyovanın, Y.V.Vasilyeva, K.A.Sorokin fənlərarası əlaqəni təlimin mühüm şərtlərindən biri hesab edirlər [3, s.74-131]. V.N.Fedorova və D.M.Kiryuşkinaya görə, [3, s.144], fənlərarası əlaqə anlayışını N.M.Çərkəzzadənin göstərdiyi kimi nəzərdən keçirmək daha doğru olar. Ona görə də həmin müəlliflər fənlərarası əlaqəni didaktik tələb kimi qəbul edirlər. Bizim fikrimizcə isə, gənclərin çağırışaqədərki hazırlığı kursunda fənlərarası əlaqənin nəzərə alınması həmin fənnin vahid strukturunun gözlənilməsi şərti ilə təlimin ümumi məsələlərinin həyata keçirilməsi üçün tətbiq olunan bir işdir, prinsipdən irəli gələn didaktik tələblərdən biridir. Bu tələb gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində şagirdlərin təbiət-riyaziyyat elmləri üzrə qazandıqları biliklərdən istifadə prosesinə də tamamilə aiddir. Belə əlaqə hərbi faktların və hərbi sahədə istifadə olunan bəzi düsturların mahiyyətini məktəblilərə daha asan öyrətmək və mənimsətmək üçün vacibdir. Başqa fənlərdə olduğu kimi, gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində də şagirdlərin fizikaya, riyaziyyata və s.

fənlərə aid biliklərindən əlverişli istifadə hərbi biliklərin mənimsənilmə keyfiyyətini yüksəltmək üçün mühüm şərt kimi qəbul oluna bilər. Bu zaman məktəblilər hərbi materialı daha dərindən başa düşür, onun öyrənilməsinə daha şüurlu yanaşır.

Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində ümumtəhsil fənləri üzrə biliklərdən istifadə zamanı şagirdlərə həm də yaradıcı düşünməyi, məntiqi mühakimələr yürütməyi öyrətmək lazımdır. Bu proses şagirdlərin təsəvvürlərinin, diqqətinin, yaddaşının, təfəkkürünün inkişaf etdirilməsi ilə yanaşı, onlarda fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərinin formalaşmasına şərait yaradır.

Təlim prosesində hərbi rəhbər fənlərarası əlaqənin göstərilən tələblərini yüksək səviyyədə yerinə yetirdikdə müsbət nəticələr əldə edir və məktəblilər hərbi biliklərə möhkəm yiyələnirlər. Hərbi anlayışlarla fizika, riyazi, coğrafi və s. anlayışlar arasında daxili bağlılığı aşkara çıxarıb onları əlaqəli şəkildə şagirdlərə çatdırmaq hərbi rəhbərin məharətindən də çox asılıdır. Bu zaman məktəblilərin diqqəti hərbi anlayışlar ilə fizika, riyazi və s. anlayışlar arasındakı əlaqəyə nə qədər tez-tez cəlb olunarsa, onlar fikri əməliyyata daha tez alışar və onlarda, adları qeyd olunan ümumtəhsil fənn anlayışları ilə hərbi anlayışlar arasında qarşılıqlı əlaqə yarada bilmək bacarığı müvəffəqiyyətlə inkişaf edər.

Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi prosesində ümumtəhsil fənnləri üzrə biliklərdən istifadə zamanı nəzərə alınmalı pedaqoji məsələlərdən biri də təlim prosesində problemli vəziyyətin yaradılmasıdır. Problemli təlim 1970-85-ci illərdə şagirdlərin fikri müstəqilliyini və fəallığını artırmaq üçün təlim prosesində tətbiq edilən metodik sistemlər arasında xüsusi yer tutmuş, geniş populyarlıq qazanmışdır. Başqa fənlərdə olduğu kimi, gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində də problemli yanaşmadan istifadənin mahiyyəti ondan ibarət olur ki, məktəblilər bir növ "tədqiqatçı", "ilk ixtiraçı" vəziyyətinə salınır, yeni biliklər onlara hazır şəkildə verilmir. Öyrənilməsi nəzərdə tutulan yeni hərbi biliklərin şərhi zamanı uyğun ümumtəhsil fənni üzrə (məsələn, fizika və riyaziyyat üzrə) biliklərindən istifadə şagirdlərin qarşısında problem (sual) şəklində qoyulur. Təfəkkür prosesi tələb edən belə bir vəziyyət isə M.M.Mahmudovun göstərdiyi kimi, problemli situasiya adlanır. Digər dərslərdə olduğu kimi hərbi hazırlıq məşğələlərində də problemli situasiya problemli təlimin əsasını təşkil etməlidir. Çünki psixoloqların müəyyənləşdirdiyi kimi, təfəkkür sualdan, problemli situasiyadan başlayır. Bu situasiyanın özü də çox vaxt böyük və mürəkkəb əqli iş tələb edən təfəkkür aktı ola bilər. Ona görə də ibtidai hərbi hazırlıq məşğələlərində şagirdlərin uyğun fizika, riyazi, coğrafi, rəsmxət, tarix və s. biliklərindən problemli şəkildə istifadə edərkən problemin məntiqi formasının sual olduğunu nəzərə almaq lazımdır. İstifadə olunacaq əsas fizika, riyazi və s. anlayışlar sualda öz əksini tapmalıdır. Əgər həmin sual şagirdləri çətinliyə salıb düşünməyə məcbur edirsə, həmin suala cavab vermək üçün onlarda fikri fəallıq əmələ gətirirsə, onda problemli situasiya yaranmış olur. Problemli situasiya təfəkkür prosesini meydana gətirir, inkişafı problemin həllinə, yəni istifadə olunacaq ümumtəhsil fənləri üzrə bilikləri müəyyənləşdirməyə və onların tətbiqinə doğru aparır.

Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində digər ümumtəhsil fənləri üzrə biliklərin tətbiqi zamanı problemli vəziyyətin yaradılması məktəblilərin emosional gərginliyini artırmaq qaydası, onların dünyagörüşünün formalaşması vasitəsi olur. Tədqiqat göstərdi ki, fizika, riyaziyyat və s. ümumtəhsil fənləri üzrə biliklərdən problemli suallar qoymaqla istifadə etmək şagirdləri düşündürür, onların idrak fəaliyyətini qüvvətləndirir, başlıcası isə diqqətini fəallaşdırır. Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində problemli situasiyaya yer verməyin mahiyyəti ondan ibarətdir ki, yeni hərbi mövzunun izahı giriş müsahibəsi ilə başlanır, şagird axtarış tələb edən suallarla və bu suallardan doğan yeni vəzifələrlə qarşılaşır, müvafiq yeni fənn biliklərindən istifadənin vacibliyini, bunsuz tələb olunan hərbi anlayışı mənimsəməyin qeyri-mümkünlüyünü başa düşür.

Məlumdur ki, təlim prosesində problem qəsdən, şüurlu şəkildə yaradılır, əvvəlcədən planlaşdırılır və məktəblilərin düşünmə qabiliyyətini inkişaf etdirmək məqsədi daşıyır. Problemli təlimin məqsədi şagirdlərin zehni axtarışına meydan verməkdir. Ona görə də bu metodu

gənclərin çağırışaqədərki hazırlığı üzrə müvafiq mövzuların tədrisi zamanı problemli təlimin köməyi ilə fizika, riyaziyyat, coğrafiya və s. anlayışlardan zəruri istifadə, hərbi rəhbərlə şagird arasındakı daim müstəqil və əks-əlaqə şəraitində keçən, öz aralarında ciddi məntiqi ardıcıllığa malik sistem kimi qəbul etmək mümkündür.

Gənclərin çağırışaqədərki hazırlığı dərslərində əlaqəli tədris məqsədilə problemli situasiya yaradılan zaman mövzu ilə bağlı konkret suallar qoyulmalı, cavablar alınmalı, şagirdlərin iştirakı ilə müqayisə və ümumiləşdirmələr aparılmalı, nəticələr çıxarılmalıdır. Lakin suallar məktəbliləri ciddi düşündürməli, əvvəlcədən qazanılmış uyğun ümumtəhsil fənləri üzrə biliklər öyrədilən şəkildə onların yadına salınmalı və bu biliklərdən istifadənin yolu qismən göstərilməlidir.

Məlumdur ki, problemli təlimin növlərindən biri problemli şərhdir. Gənclərin çağırışaqədərki hazırlığı dərslərində, yeri gəldikcə, fənlərarası əlaqəyə müraciət zamanı tətbiq olunan problemli şərh bir tərəfdən şagirdlərə “elmi axtarış” nümunəsi göstərməli, daha inandırıcı olmalı, müvafiq hərbi biliklərin daha şüurlu mənimsənilməsinə imkan verməlidir. Digər tərəfdən, problemli şərh zamanı hərbi rəhbər idrak fəaliyyəti prosesinin bütün mərhələlərindən özü keçir və şagirdlərin fikrini də həmin yolla aparır. Tədqiqat göstərdi ki, fizika, riyaziyyat və s. fənlərdən öyrənilən biliklərdən istifadə edərək hərbi mövzuların problemli şərhi zamanı hərbi rəhbər məktəbliləri idrak fəaliyyətinin aşağıdakı mərhələlərindən keçirməli olur:

a) problemli situasiyanın yaradılması, yəni hərbi biliklərin mənimsənilməsi zamanı şagirdlərin fizika, riyaziyyat, coğrafiya, əmək təlimi və s. fənlərdən öyrəndikləri anlayışlarla qarşılaşdırılması;

b) problemli situasiyanın təhlili, qarşıya çıxan çətinliyin mahiyyətinin araşdırılması və başa düşülməsi, problemin sualla ifadə edilməsi (problemin qoyuluşu);

c) problemin həlli üçün fərziyyələrin irəli sürülməsi və əsaslandırılması, yəni şagird hansı fizika və riyazi biliklərdən və necə istifadə ediləcəyini söyləyir, sonra nə üçün belə fikirləşdiyini bir neçə cümlə ilə aydınlaşdırır;

d) fərziyyənin yoxlanması. Bu mərhələdə məktəblilər uyğun ümumtəhsil fənni üzrə biliklərə əsaslanır, hərbi anlayışın mahiyyətini açır, fərziyyənin doğruluğunu sübut-isbat edir. Nəticədə problem həll olunur.

V.F.Farforovskinin fikrincə, gənclərin çağırışaqədərki hazırlığı dərslərində mövzuların əlaqəli tədrisi zamanı şagirdlərin idrak fəaliyyətini müstəqil də buraxmaq olar. Bu şərtlə ki, onlar bu mərhələlərin bir neçəsindən müstəqil keçməyi bacarsınlar. Çətinlik yaranan mərhələlərdə isə qismən kömək göstərmək lazımdır [4, s.64]. Axtarıcı müsahibənin tətbiqi zamanı hərbi rəhbər ümumtəhsil fənni üzrə biliklərdən istifadə məqsədilə problemi qoyduqdan sonra şagirdləri onun həllinə də cəlb edir. Fərziyyə və gümanların irəli sürülməsi, onların yoxlanılması məktəblilərin fəal iştirakı ilə aparılır. Burada hərbi rəhbər tez-tez öz şərhini saxlayır, sinfə suallar verir, ən başlıcası isə, şagirdlərin fizikaya (yaxud, riyaziyyata) aid bilik və bacarıqlarını tətbiq etmələrinə imkan yaradır. Bu mərhələdə hərbi biliyin mənimsədilməsi hərbi rəhbərin şərhi ilə şagirdlərin müstəqil işlərinin növbələşməsi şəraitində həyata keçirilir.

Bəzən məktəblilər hərbi rəhbər fizika və yaxud riyaziyyat kursu üzrə biliklərdən istifadə məqsədilə qoyduğu sualı (problemi) dərk etdikdən sonra müstəqil axtarışa qoşulur, fərziyyələr irəli sürür, onları yoxlamaq üçün yeni suallar fikirləşir və nəticələr çıxarmağa doğru gedirlər. Belə təlim metoduna isə didaktikada *tədqiqat metodu* adı verilmişdir. Bu metodla yeni hərbi bilik tamamilə şagirdlərin müstəqil fəaliyyətləri nəticəsində mənimsədilir.

Beləliklə, gənclərin çağırışaqədərki hazırlığı dərslərində məktəblilərin ümumtəhsil fənləri üzrə biliklərindən istifadəni təmin edən bu üç metod: *Problemli şərh, axtarıcı müsahibə və tədqiqat metodu* birlikdə gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində müvəffəqiyyətlə həyata keçirilə bilir.

***İşin elmi nəticəsi.*** Xalqımızın tarixində milli oyanış məqamı kimi dəyərləndirən dövr hər birimizdə, xüsusən ibtidai sinif şagirdlərində özünə inamı, ölkənin taleyi üçün məsuliyyət hissini qat-qat gücləndirir.

***İşin elmi yeniliyini*** ondan ibarətdir ki, ilk dəfə olaraq yeniyetmə məktəblilərlə aparılan hərbi-vətənpərvərlik tərbiyəsi işinin mahiyyəti, məzmunu və təşkili yolları işlənilmişdir. Bu yaş qrupuna daxil olan şagirdlərlə pedaqoji işin aparılmasının ümumi prinsipləri açıqlanmışdır.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Aparılan tədqiqatın nəticələri məktəblilərlə aparılan pedaqoji işin sisteminin qurulmasına, şagirdlərə yönələn neqativ təsirlərin neytrallaşdırıb aradan qaldırılması üçün konkret yollar müəyyənləşdirilməsinə, tədbirlər zamanı şagirdlərin asudə vaxtının təşkili məsələlərini pedaqoji ölçülərlə sistemləşdirilməsinə böyük fayda verə bilər.

**Ədəbiyyat**


1. Tağıyev, Ş.T. Fənlərarası əlaqə və gənclərin çağırışaqədərki hərbi hazırlığı. Monoqrafiya / Ş.T.Tağıyev, – Bakı, –2013, – 280 s.
2. Зверев, И.Д. Взаимная связь учебных предметов / И.Д.Зверев, – М., Знание, – 2017, – 64 с.
3. Межпредметные связи в преподавании основ наук в школе. Тезисы Всесоюз. конф. 11-12 октября 2003, Вып.I, Челябинск, – 2013, – 183 с.
4. Фарфоровский, В.Ф. Военно-патриотическое воспитание школьников (во внеучебное время): Пособие для учителей / В.Ф.Фарфоровский, – М., Просвещение, – 1981, – 128 с.


**R.V.Nasibova**

**The Role of Interductive Communication in Military-Patriotic Education of School Youth**

***Summary***

As a result of the study, it was determined that after gaining state independence, Azerbaijani national military patriotism found the most favorable conditions for its high development. The main conditions of Azerbaijani national military patriotism are its independence, the presence of an independent army, a national leader, a great commander, a single homeland of Azerbaijanis of the world, as well as the presence of training based on the principle of interdisciplinary communication and the mentality of the ideology of Azerbaijanism. The supremacy of the territorial integrity and inviolability of the borders of Azerbaijan, the perfect study of modern military equipment and the ability to skillfully use it should also be considered an integral part of national military patriotism.

***Key words:*** *interdisciplinary communication, military-patriotic education, problematic interpretation, search interview, research method*

**Р.В.Насибова**

**Роль межпредметной связи в военно-патриотическом воспитании школьной молодежи**

***Резюме***

В результате исследования было определено, что после обретения государственной независимости азербайджанский национальный военно-патриотизм обрел самые благоприятные условия для своего высокого развития. Главными условиями азербайджанского национального военного патриотизма являются его независимость, наличие независимой армии, общенационального лидера, великого полководца, единой родины азербайджанцев мира, а также наличие обучения, основанного на принципе межпредметной связи, и менталитета идеологии азербайджанства. Верховенство территориальной целостности и неприкосновенности границ Азербайджана, совершенное изучение современной боевой техники и умение умело ею пользоваться также следует считать неотъемлемой частью национального военного патриотизма.

***Ключевые слова:*** *межпредметная связь, военно-патриотическое воспитание, проблемная интерпретация, поисковое интервью, метод исследования*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub:13.05.2025*